DAXİLİ QOŞUNLAR 2016-cı İLDƏ...

Yanvarın 11-də Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov anadan olmasının 55-ci ildönümü münasibətilə Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov qəbul etmiş, dövlətçiliyə, peşə borcuna sədaqətini, yüksək insani keyfiyyətlərini xüsusi vurğulayaraq, Daxili Qoşunlara həvalə olunmuş mühüm vəzifələrin və xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı xüsusi xidmətləri, habelə anadan olmasının 55 illiyi münasibətilə DİN-in «Fəxri fərmanı» ilə təltif etmişdir.

****

Yanvarın 11-də Daxili Qoşunların 12576 saylı hərbi hissəsinin hərbi hospitalın yaranmasının 23-cü ildönümü təntənə ilə qeyd olunub. Mərasimdə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun şəxsi heyətə ünvanladığı təbrik məktubu səsləndirilib.

****

Yanvarın 14-də Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının Baş İdarəsində "2015-ci ildə Daxili Qoşunlarda xidməti-döyüş fəaliyyətinin yekunları"na dair Hərbi Şuranın geniş tərkibdə iclası keçirilib. İclasda Azərbaycan Respublikası Prezidentinin Müdafiə məsələləri üzrə köməkçisi xidmətinin baş məsləhətçisi general-mayor Rövşən Tapdıqov, Daxili Qoşunların hərbi hissələrinin komandirləri, komandirlərin 1-ci müavinləri - qərargah rəisləri və tərbiyə işləri üzrə müavinləri iştirak edib.

****

Yanvarın 19-da Daxili İşlər Nazirliyində Daxili Qoşunların 2015-ci ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş naziryanı əməliyyat müşavirəsi keçirilib.

****

20 Yanvar - Ümumxalq Hüzn Günündə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Komandanlığı və şəxsi heyəti Şəhidlər Xiyabanına gedərək Azərbaycanın müstəqiliyi və azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizi böyük ehtiramla yad edib, onların məzarları üzərinə qərənfillər düzüblər.

****

Yanvar ayının 22-də Daxili İşlər Nazirliyinin, Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə ikiqat dünya və Paralimpiya Oyunlarının çempionu, altıqat Avropa çempionu, ilk dəfə paytaxtımızda keçirilmiş I Avropa Oyunlarının qalibi İlham Zəkiyevin kursantlarla görüşü olub. Tədbirdə AHM-in rəhbərliyi və müəllimlər iştirak ediblər.

****

Yanvarın 24-də Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov qoşunların Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində əsgər validevnləri ilə görüşüb, onların təklif və müraciətlərini dinləyib.

****

Yanvarın 28-də Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı Silahlı Qüvvələr attaşesi və Hərbi İş Birliyi üzrə Koordinasiya Qərargahının rəisi general-mayor İhsan Başbozkurtu qəbul edib.

****

Yanvarın 29-da Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov 2015-ci ildə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində, komandir, döyüş və ictimai-siyasi hazırlığında, qaydaqanunun və hərbi intizamın möhkəmləndirilməsində yüksək nailiyyətlər əldə etdiklərinə, vəzifələrinin icrasına vicdanlı münasibət bəslədiklərinə və nümunəvi xidmətlərinə görə Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun müvafiq əmri ilə mükafatlandırılmış hərbi qulluqçulara mükafatları təqdim edib.

****

Yanvarın 31-də Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Qoşunların "N" saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş gənc əsgərlərlə görüşüb.

****

Aprelin 8-də Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov 2015-ci ildə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində, komandir, döyüş və ictimai-siyasi hazırlığında, qaydaqanunun və hərbi intizamın möhkəmləndirilməsində yüksək nailiyyətlər əldə etdiklərinə, vəzifələrinin icrasına vicdanlı münasibət bəslədiklərinə və nümunəvi xidmətlərinə görə Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun müvafiq əmri ilə mükafatlandırılmış hərbi qulluqçulara mükafatları təqdim edib.

****

Mart ayının 20-də Daxili Qoşunların 16077 saylı hərbi hissəsi yaranmasının səkkizinci ildönümünü qeyd edib. Bu münasibətlə hərbi hissədə təntənəli mərasim keçirilib.

****

Aprel ayında Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Daxili Qoşunların Baş İdarəsində Belarus Respublikasının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Gennadiy Vladimiroviç Axramoviçi qəbul edib.

****

Aprelin 23-də paytaxtın Suraxanı rayonunda yerləşən Kamal Məmmədov adına 209 nömrəli tam orta məktəbin şagirdləri tanışlıq məqsədilə Daxili Qoşunların 67987 saylı hərbi hissəsində olublar.

****

Aprelin 27-də Daxili Qoşunların Ali Hərbi Məktəbində Pakistan İslam Respublikasının Milli Müdafiə Universitetinin rəhbər heyəti və "Milli Təhlükəsizlik və Müharibə kursu"nun 17 nəfər dinləyicisi ilə görüş keçirilib.

****

Mayın 4-də Daxili Qoşunların Baş İdarəsində Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Türkiyə Respublikasının Jandarm Baş Komandanı ordu generalı Qalip Mendinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

****

May ayının 5-də Daxili Qoşunların Baş İdarəsində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edilmiş tantənəli mərasim keçirilib. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının professoru, millət vəkili Elman Nəsirov iştirak edib.

****

Mayın 14-də Dövlət Bayrağı Meydanında Daxili Qoşunların sıralarına xidmətə yeni qəbul edilmiş gənc əsgərlərin təntənəli andiçmə mərasimi keçirilib. Tədbirdə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov, Veteranlar şurasının üzvü Elxan Xəzər və əsgər validevnləri iştirak ediblər.

****

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı tərəfindən təsdiq edilmiş plana əsasən, may ayının 14-ü və 23-də Daxili Qoşunların 17077 saylı hərbi hissəsinin helikopterləri Müdafiə Nazirliyinin Hərbi Hava Qüvvələrinin Aviasiya Təlim Mərkəzində döyüş atışlı təlim uçuşları keçirib.

****

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə may ayının 17-19-da Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətində daxili işlər orqan və hissələri arasında çoxnövçülük üzrə şəxsi və komanda birinciliyi uğrunda yarış keçirilib. Yarışda Daxili Qoşunların yığma komandası birinci yerə layiq görülüb.

****

İyunun 7-də Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Pakistan İslam Respublikasının Qlobal Sənaye və Müdafiə Həlli Təşkilatının (GİDS) Baş Direktoru, istefada olan general-mayor Tariq Cavaidin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

****

Daxili Qoşunların "FORMULA-1 AVROPA QRAN-PRİ" yarışlarına hazırlığı yoxlanılıb. General-leytenant Ş.Məmmədov yarışlar zamanı xidmətə cəlb olunan hərbi qulluqçuların hazırlığını qənaətbəxş qiymətləndirib.

****

İyunun 18-də Əsgər Ailələrinə Dəstək İctimai Birliyinin «Vətənpərvərliyin təbliğinə ictimai dəstəyin artırılması» layihəsinin rəhbəri Mətanət Cəfərova Daxili Qoşunların 16073 saylı hərbi hissəsində olub.

****

İyunun 27-də Daxili Qoşunların 16076 saylı hərbi hissənin yaranmasının 13-cü, iyunun 30-da isə 17072 və 17074 saylı hərbi hissələrinin 24-cü ildönümü tantənəli şəkildə qeyd olunub.

****

Daxili Qoşunların tarixi, torpaqlarımızın müdafiəsi zamanı şəhid olmuş hərbi qulluqçularımızın şərəfinə qəhrəmanlıq nümunələri, inkişafı və vəzifələri barədə geniş məlumat əldə etmək məqsədilə, sıralarımıza qəbul olunmuş gənc əsgərlər iyulun 9-da Daxili Qoşunların muzeyi ilə tanış olublar.

****

İyul ayının 4-də Daxili Qoşunların Ali Hərbi məktəbində və hərbi hissələrində zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə yay tədris dövrünün açılış mərasimi keçirilib.

****

İyulun 8-də Ali Hərbi Məktəbdə və hərbi hissələrdə 2016-cı ilin I yarımili üzrə xidməti-döyüş fəaliyyətinin nəticələri və qarşıda duran vəzifələrə həsr olunmuş tədbir keçirilib. Həmin tədbirlərdə Daxili Qoşunların Baş İdarəsindən yüksək rütbəli vəzifəli şəxslər iştirak ediblər.

****

İyulun 16-da Daxili Qoşunların Baş İdarəsində Hərbi Şuranın "2016-cı ilin I yarımilində xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinin nəticələri və qarşıda duran vəzifələr"ə həsr olunmuş iclası keçirilib. İclasda Daxili Qoşunların hərbi hissələrinin komandirləri, qərargah rəisləri və tərbiyə işləri üzrə müavinləri iştirak ediblər.

****

İyul ayının 31-də Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov xidmətə yeni qəbul edilmiş əsgərlərlə görüşüb.

****

Avqustun 1-də Daxili Qoşunların 17077 saylı hərbi hissəsinin yaranmasının 7-ci ildönümü qeyd edilib.

Avqust ayının 3-də Türkiyə Respublikasının Jandarm Qüvvələrinin Daxili Qoşunlarda xidməti ezamiyyətdə olan daha bir nümayəndə heyətinin fəaliyyət müddəti başa çatıb. Bu münasibətlə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov heyəti qəbul edib.

****

Avqustun 13-də Daxili Qoşunların Bakı şəhərində yerləşən üç hərbi hissəsində xidmətə yeni qəbul edilmiş əsgərlərin andiçmə mərasimi keçirilib. Mərasimlərdə Daxili Qoşunlar Komandanının müavinləri, Veteranlar şurasının üzvləri və əsgər validevnləri iştirak ediblər.

****

Avqustun 18-də Səbail rayon İcra Hakimiyyəti ilə DİN Daxili Qoşunların 12-ci dəfə həyata keçirdiyi birgə layihə çərçivəsində paytaxtımızın mərkəzindəki «Sahil bağı»nda məktəblilərin «Şahinlər» yay istirahət düşərgəsinə yola salınma mərasimi keçirilib.

****

Avqustun 27-də 25033, 28-də isə 16073 saylı hərbi hissənin yaranmasının 24-cü ildönümü münasibətilə mərasim keçirilib.

****

Sentyabr ayında Daxili Qoşunların Ali Hərbi Məktəbinə bu il qəbul olan kursantların təntənəli andiçmə mərasimi keçirilib.

****

Sentyabrın 30-da Daxili Qoşunların 99713 saylı hərbi hissəsi 50-ci ildönümünü qeyd edib. Bu münasibətlə hərbi hissədə təntənəli mərasim keçirilib. Mərasimdə Daxili Qoşunlar Komandanının 1-ci müavini-Qərargah rəisi general-mayor Şirin Xəlilov Daxili Qoşunların veteranları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

****

Oktyabrın 4-dən 22-dək qoşunların hərbi hissələrinin xüsusi təyinatlı dəstələrinin xüsusi hərnə yarımqrupları və snayperləri arasında yarışlar keçirilib.

****

Oktyabrın 5-də Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Belarus Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Komandanının 1-ci müavini - Qərargah rəisi polkovnik Matkin Oleq Vladimiroviçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

****

Oktyabrın 13-də Daxili Qoşunların Baş İdarəsində hərbi intizamın vəziyyəti, təbriyə işinin təşkili, qanunçuluğun möhkəmləndirilməsi üzrə fəaliyyətin nəticələri, qarşıda duran məsələlərə və vətəndaşların müraciətlərinə baxılması, qəbulu işinin vəziyyətinə həsr olunmuş Hərbi Şuranın iclası keçirilib.

****

Noyabrın 7-də Daxili Qoşunların Baş İdarəsinden və 99713, 67987, 25031 saylı hərbi hissələrdən hərbi qulluqçular II Fəxri Xiyabana gedərək Milli Qəhrəman Mübariz İbrahimovun məzarını ziyarət ediblər.

****

Noyabrın 11-də Daxili Qoşunların 25033 saylı hərbi hissəsində "Ənənəvi İslam və xarici təsirlər" mövzusunda tədbir keçirilib. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov iştirak edib.

****

Dekabrın 9-da Daxili Qoşunların Baş İdarəsində Ulu Öndər Heydər Əliyevin anım mərasimi keçirilib. Mərasimdə millət vəkili Zahid Oruc iştirak edib.



Allah rəhmət eləsin

25031 saylı hərbi hissənin şəxsi heyəti mayor Musa Süleymanova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

12576 saylı hərbi hissənin şəxsi heyəti baş leytenant Günel Məmmədovaya **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dələ nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.
İlham ƏLİYEV

№ 25 (491)
31 dekabr 2016-cı il
Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

ƏSGƏR

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

31 DEKABR - DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ

Azərbaycan xalqının tarixində əvəzsiz xidmətləri olan, əsl vətənpərvər, milletsevər Azərbaycanlı Heydər Əliyevin xalqımız üçün gördüyü işlərin böyüklüyünü sadalamaqla bitməz. Bütün varlığını, bilik və təcrübəsini xalqının rifahına həsr edən bu nadir şəxsiyyətin həyatı bütöv bir əsrə bərabərdir. Çünki o, ən ağır, faciəli zamanlarda vətəni Azərbaycanın yanında oldu, xalq taleyini ona etibar etdi. O isə bu etimadı, inamı doğrultdu, sonsuz məhəbbətlə, bütün canı, qanı ilə sevdiyi torpağını parçalanmaqdan, məhv olmaqdan, daha böyük faciələrdən xilas etdi, onu müstəqil bir dövlət kimi bütün dünyaya tanıtdı. Bu gün müstəqil, xoşbəxt, rifah halında yaşamağımızın səbəbkarı Heydər Əliyevdir.

Çünki Azərbaycan xalqının tarixinə qızıl harflərlə yazılmış günlərin hər birinin arxasında dahi rəhbərin imzası durur. Bu günlərdən ən əhəmiyyətlisi sözsüz ki, bütün dünyada yaşayan azərbaycanlıların bir araya toplandığı gündür. Minillik tariximizdə dünya azərbaycanlılarını ilk dəfə bir araya gətirən də məhz türk dünyasının böyük dövlət xadimi Heydər Əliyev olub.

Hələ 1991-ci ilin dekabr ayının 6-da Heydər Əliyevin təklifi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi dekabr ayının 31-nin "Dünya Azərbaycanlılarının Həmrəyliyi günü" elan edilməsi barədə qərar qəbul etdi.

Müstəqilliyimizi əldə etdikdən sonra bu istiqamətdə mühüm tədbirlər həyata keçirildi. Məhz müstəqillik bütün dünya azərbaycanlılarının milli hüquqlarının, beynəlxalq haqlarının həyata keçirilməsi üçün böyük imkanlar yaratdı. Uzaqgörən dövlət başçısı bütün imkanlardan lazımınca istifadə etdi. Çünki o, çox yaxşı başa düşürdü ki, qüdrətli Azərbaycan qurmaq üçün atılan ilk addım bütün xalqı bir yumruq kimi birləşdirməkdir. Təbii ki, Türkiyə, Rusiya, İran İslam Respublikası, Amerika Birləşmiş Ştatları, Almaniya, Fransa, Kanada və dünyanın başqa ölkələrində yaşayan soydaşlarımızı bir araya gətirmək elə də asan iş deyildi. Ancaq Ulu Öndər bunun da öhdəsindən layiqincə gəldi. 2001-ci ilin noyabr ayının 10-da paytaxt Bakıda Dünya Azərbaycanlılarının birinci qurultayı keçirildi. Qurultayda 36 ölkədən 1105 nümayəndə, 906 qonaq iştirak edirdi.

Qurultayda çıxış edən Heydər Əliyevin nitqindən bir hissəni xüsusilə diqqətə çatdırmaq istərdim: "Biz azərbaycançılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimizin ətrafında daha sıx birləşməli, onun təraqqisi üçün əlimizdən gələni əsirgəməməliyik".

Bu ifadə bir daha sübut etdi ki, Ümummilli Liderin əsas qayəsi yalnız və yalnız xalqın milli birliyinə nail olmaq idi. O, bunu bacardı. Çünki qurultayda Azərbaycanın Avroatlantika məkanına inteqrasiyasına kömək edəcək diasporumuzun inkişafında həlledici əhəmiyyətə malik qərarlar qəbul olundu. O cümlədən, 2002-ci ilin iyulun 5-də Xarici Ölkələrdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət Komitəsi yaradıldı.

Ümummilli Liderin qoyduğu ideyalar bu gün Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir.

2006-cı il mart ayının 16-da keçirilən Dünya Azərbaycanlılarının ikinci qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının sədri seçildi və Dünya Azərbaycanlılarının bir mərkəzdən koordinasiyası istiqamətində daha geniş, çoxşaxəli tədbirlər həyata keçirilməyə başlanıldı.

Azərbaycan xalqının tarixində mühüm əhəmiyyətə malik olan sayca üçüncü ən böyük qurultay isə 2011-ci il iyul ayının 5-6-da təşkil olundu. Qurultayda 42 ölkədən 1272 nümayəndə, 579 təmsilçi və 211 qonaq iştirak etmişdi. Bu mühüm tədbirə, ümumilikdə, 13 ölkənin parlamentindən 37 deputat qatılmışdı. Qürurverici hal ondan ibarət idi ki, qurultayın iştirakçıları arasında vaxtilə Azərbaycanda yaşamış yəhudi, rus, ukraynalı, bolqar, ahıska türkü və digər xalqların miqrantları da var idi. Qurultayın yekununda Dağlıq Qarabağ münaqişəsi ilə bağlı xarici ölkələrin parlamentlərinə müraciət qəbul olundu.

Bu ilin iyun ayının 3-dən 5-dək davam edən dördüncü qurultayda isə 49 ölkədən 500-dən çox nümayəndə və qonaq iştirak edirdi. Qonaqların içərisində xarici ölkələrin Azərbaycana dost münasibətlə tanınan nüfuzlu siyasətçiləri, ictimai xadimləri, elm adamları və bir neçə ölkənin yüksək vəzifəli şəxsləri, parlament üzvləri də vardı. Qurultayda Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində qarşıda duran vəzifələr, təbliğat işində müasir metodların və informasiya texnologiyalarının tətbiqi, soydaşlarımızın hüquq və azadlıqlarının qorunması istiqamətində mövcud olan problemlər və onların həlli yolları və s. prioritet məsələlər müzakirə olunub.

Bir sözlə, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin davam etdirdiyi bu ənənə milli birliyin əldə olunması üçün əvəzsizdir.

Ieytenant X.Tağıyeva

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV 2016-CI İLİN İDMAN YEKUNLARINA HƏSR OLUNAN MƏRASİMDƏ İŞTİRAK EDİB

Dekabrın 23-də Milli Olimpiya Komitəsində 2016-cı ilə yekun vurulub, idmançılara və idman mütəxəssislərinə mükafatların təqdim edilməsi mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə nitq söyləyib.

Bu gün Azərbaycanın dünya miqyasında güclü idman dövləti kimi tanındığını qeyd edən Prezident İlham Əliyev bildirib ki, ildənilə idman nəticələrimizi, uğurlarımızı artırırıq: "Əgər Yay Olimpiya Oyunlarının nəticələrinə fikir versək görərik ki, hər oyundan-oyuna Azərbaycanın qazandığı medalların sayı artır. Yeni bu, müsbət dinamikadır. Əslində, dinamika hər bir məsələnin təhlili üçün əsas amildir. Biz daim inkişafdayıq. Əminəm ki, müsbət dinamika bundan sonra da davam edəcək".

Ölkə prezidenti diqqətə çatdırıb ki, bu il id - mançılarımız beynəlxalq yarışlarda yüzlərlə medal qazanmışlar. Yeni, bütün beynəlxalq yarışlarda Azərbaycan bayrağı dalğalanır. Həm böyüklər, həm gənclər, həm də yeniyetmələr arasında keçirilən bütün beynəlxalq idman tədbirlərində Azərbaycan ləyaqətlə təmsil olunur. Son illər ərzində çox güclü idmançılar nəsli yetişib. Gənclərimiz - müstəqillik dövründə doğulan, yetişən idmançılar bu gün şöhrətimizi yüksəklərə qaldırırlar. 2016-cı il ölkəmizin idman tarixində xüsusi yer tutacaq. İlk növbədə, ona göra ki, biz bu il Rio Yay Olimpiya Oyunlarında tarixi qələbə qazanmışıq. Bu Oyunlarda 200-dən çox ölkə iştirak edirdi. Bu, böyük tarixi qələbədir. Bu, həm idmançılarımızın gücünü, eyni zamanda, dövlətimizin gücünü göstərir. Çünki ancaq inkişaf etmiş güclü dövlətlərdə idman da inkişaf edir və gözəl idman nəticələri vardır. Əgər yüksək yerləri tutan ölkələrin siyahısına baxsaq görərik ki, onların mütləq əksəriyyəti zəngin və inkişaf etmiş ölkələrdir. O ölkələrdir ki, onlarda dövlətçilik ənənələri çox böyükdür. Bizim isə cəmi 25 yaşımız var. Biz bu il müstəqilliyimizin bərpasının 25 illiyini qeyd etmişik və idmançılarımızın qələbəsi bu bayram günlərinə gözəl bir hediyyə olmuşdur.

İdmanın kütləviliyinin daim diqqət mərkəzində saxlanılmasının vacibliyini vurğulayan Azərbaycan Prezidenti əlavə edib ki, hər bir gənc idmanla məşğul olmalıdır: "Çalışmaq lazımdır ki, idmanla məşğul olmayan gənc qalmasın. Çünki idmanla məşğul olan hər bir insan öz həyatında, fiziki vəziyyətində, mənəvi-psixoloji durumunda bunun gözəl nəticələrini görür. İdmançılar həm fiziki cəhətdən, həm mənəvi cəhətdən sağlamdırlar, vətənpərvərdirlər. Onlar Vətəni təbliğ edirlər. Onlar bizim səfirlərimizdir. Onlar Azərbaycan bayrağı altında çıxış edirlər. Ona görə onlarda vətənpərvərlik ruhu çox yüksəkdir, fiziki güc də var və bütün bölmələrdə uşaqların, yeniyetmələrin idmanla məşğul olması üçün tədbirlər görülür. Biz coğrafiyanı genişləndiririk və çalışmalıyıq ki, idmanla məşğul olmaq vərdişi kütləvi xarakter alsın".

Respublika Prezidenti çıxışının sonunda bütün Azərbaycan idmançılarını, idman mütəxəssislərini qarşıdan gələn Yeni il bayramı, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edib.

Sonra Prezident İlham Əliyev 2016-cı ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim etdi.

DAXİLİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ-DAXİLİ QOŞUNLARIN KOMANDANI TÜRKİYƏ CÜMHURİYYƏTİNİN AZƏRBAYCAN RESPUBLİKASINDAKI SİLAHLI QÜVVƏLƏRİNİN ATTAŞESİ İLƏ GÖRÜŞÜB

Dekabrın 20-də Daxili Qoşunların Baş İdarəsində Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı Silahlı Qüvvələrinin attaşesi general-mayor Zafer Ocakı qəbul edib.

Qonaqı Daxili Qoşunlar Komandanının müşaviri polkovnik Kemal Şahin Türk müşayiət edib.

1997-ci il oktyabrın 31-də imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlar Baş İdarəsinin şəxsi heyətinə Türkiyə Jandarm İdarəsi tərəfindən ediləcək təlim-təhsil və texizat yardımına aid Protokol"dan danışan general-leytenant Ş.Məmmədov Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə Türkiyə Jandarm Baş Komandanlığı arasındakı sıx münasibətlərin günü-gündən dərinləşdiyini vurğulayıb. Əlavə olaraq bildirib ki, iki ölkə arasındakı dostluq və əməkdaşlıq münasibətləri qurumların hərbi əməkdaşlıq əlaqələrinin genişlənməsinə töhfələr verib.

O, qardaş Türkiyə Respublikasının Jandarm Baş Komandanlığının zabitlərinin Daxili Qoşunlarda təlim-tədris sahəsindəki fəaliyyətini də yüksək qiymətləndirib.

General-mayor Z.Ocak da öz növbəsində səmimi və qonaqpərvər qəbul üçün təşəkkürünü bildirib, iki qurum arasında qarşılıqlı əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsində maraqlı olduqlarını diqqətə çatdırıb.

Qarşılıqlı fikir mübadiləsi zamininda keçən görüşdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə Türkiyənin Jandarma Qüvvələri arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri müzakirə olunub.

Görüşün sonunda xatira şəkli çəkilib

Mətbuat xidməti

«31 DEKABR - DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ» VƏ «YENİ İL» BAYRAMLARI MÜNASİBƏTİ İLƏ DAXİLİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ-DAXİLİ QOŞUNLARIN KOMANDANININ TƏBRİKİ

Cənab generallar, zabitlər, gizirlər, çavuşlar və əsgərlər !

Təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş Dünya Azərbaycanlılarının Həmrəyliyi günü müstəqillik əldə olunan zamandan etibarən xalqımız üçün böyük əhəmiyyət kəsb edən şərəfli bir tarixə çevrilmişdir. Milli həmrəylik-mənəvi dəyərlərimizə, tarixi irsimizə bağlılıq, mübarizlik, özünəməxsus ənənələrimizə sadiqlik deməkdir. Vətənini, xalqını sevən hər bir azərbaycanlı öz dövlətini qorumalı, Vətənə böyük məhəbbət və sədaqət nümayiş etdirməlidir.

2016-cı il mühüm tarixi hadisələrlə, müstəqilliyimizin və dövlətçiliyimizin əbədiliyi naminə hə - yata keçirilən ardıcıl və səmərəli tədbirlərlə əlamətdar olmuşdur. Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan daha da inkişaf etmiş, qüdrətlənmişdir.

Ölkə rəhbərinin uğurlu daxili və xarici siyasət kursunun tənzənəsi kimi respublikada daxili sabitliyin yaradılması və ictimai təhlükəsizliyin etibarlılığının təmin olunması, demokratik və hüquqi dövlət quruculuğu sahəsində qazanılmış nailiyyətlər dövlətimizin intensiv tərəqqi dövrünə qədəm qoymasına imkan vermişdir. Azərbaycan özünü dünyavi və demokratik dövlət kimi beynəlxalq aləmdə təsdiqləmişdir.

Böyük iftixar hissi ilə qeyd etmək istəyirəm ki, bu uğurların əldə olunmasında, ölkədə istimai asayişin qorunmasında və möhkəmlənməsində, cinayətkarlıqla mübarizədə sıralarında qulluq etdiyimiz Daxili Qoşunların da böyük xidmətləri olmuşdur. Yola saldığımız ildə dövlətin və xalqın keşiyində mətin dayanan Daxili Qoşunların xidməti fəaliyyəti ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirilmişdir.

Əziz silahdaşlarım!

Əminəm ki, qarşıdan gələn 2017-ci ildə də Daxili Qoşunların şəxsi heyəti dövlət başçısı tərəfindən fəaliyyətimizə verilmiş qiymət və göstərilən etimadı şərəflə doğruldacaq, Azərbaycan dövlətinin etibarlı dayaqlarından biri kimi qarşıya qoyulan məsuliyyətli tapşırıqların öhdəsindən müvəffəqiyyətlə gələcəkdir.

Sizi «Dünya Azərbaycanlılarının Həmrəyliyi günü» və «Yeni il» bayramları münasibəti ilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, uzun ömür, ailə səadəti və xidməti fəaliyyətinizdə uğurlar arzulayıram!

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov

21 dekabr 2016-cı il

ALİ HƏRBİ MƏKTƏBDƏ VETERANLARLA GÖRÜŞ

Daxili Qoşunların Ali Hərbi Məktəbində təhsil alan kursantlar bizim gələcəyimizdir. Onların mükəmməl hazırlıqlı zabit kimi yetişməsi üçün Ali Hərbi Məktəbdə bütün lazımi işlər görülür. Ali Hərbi Məktəbin rəhbərliyi və müəllim heyəti kursantların mənəvi-psixoloji hazırlığına, onlarda vətənpərvərlik əqidəsinin formalaşmasına da xüsusi diqqət yetirir. Elə bu məramdan irəli gələrək Ali Hərbi Məktəblə Daxili Qoşunların Veteranlar Şurası arasında son bir neçə ildə sıx əlaqələr qurulub və birgə tədbirlər təşkil olunur. Təşkilatımız kursantların şərəfli anələr ruhunda təlim-tərbiyəsi işinə öz töhfəsini verir.

Dekabrın 24-də Daxili Qoşunların veteranlarının bir qrupu Ali Hərbi Məktəbin qonağı oldu. Daxili Qoşunların Veteranlar Şurasının sədri Murad Mürsəlov, Daxili Qoşunların Veteranlar Şurası sədrinin müavini Telman Aslanov, Daxili Qoşunların Veteranlar Şurasının üzvü Vaqif Nəsibov, veteranımız Mehrali Şamxalov və bu yazının müəllifinin daxil olduğu heyəti Ali Hərbi Məktəbin rəisi general-mayor İlqar Məmmədov qəbul etdi. O, veteranları Ali Hərbi Məktəbdə növbəti dəfə görməkdən məmnun olduğunu vurğuladı. Qeyd etdi ki, veteranlar Daxili Qoşunların fəxridir. Onların xidmət təcrübəsindən istifadə olunmasına, tərbiyə işində yaxından iştirak etməsinə həmişə ehtiyac duyulduğunu deyən general-mayor İ.Məmmədov Veteranlar Şurasının gördüyü işləri müsbət qiymətləndirdi.

Söhbət zamanı Ali Hərbi Məktəbdə tədris prosesinin xüsusiyyətləri, hərbi tədrisin praktiki xidmətdən irəli gələn məqamlarla bağlılığı, kursantların təlim-tərbiyəsi işinə müasir tələblər barədə danışıldı. Söhbətin sonunda Veteranlar Şurasının sədri M.Mürsəlov general-mayor İ.Məmədova Daxili Qoşunların veteranları barədə kitabı təqdim etdi.

Sonra biz Ali Hərbi Məktəbin fəaliyyəti ilə əyani tanış olduq. Kursantların kazarmasına, tədris otaqlarına, yeməkxanaya və tibb məntəqəsinə baş çəkdik. Daxili nizam, səliqə-sahman, hərbi etika və digər müsbət cəhətləri müşahidə etmək xoş təəssürat yaratdı.

Daha sonra kursantlarla görüşümüz oldu. Görüşü Ali Hərbi Məktəb rəisinin tərbiyə işləri üzrə müavini VİE mayor Surxay Gülməmmədov açdı. Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anıldı. Dövlət Himni səsləndirildi.

Veteranlar Şurasının sədri M.Mürsəlov tədbirdə çıxış etdi. O, kursantları Daxili Qoşunların veteranları adından salamlayaraq, belə görüşlərin artıq müsbət bir ənənə halını aldığını nəzərə çatdırdı. Veteranların hərbi xidmətdə olarkən Daxili Qoşunların formalaşması və inkişafında öz əməyini esirgəmədiyini, bu gün isə vacib ictimai missiyanı yerinə yetirdiyini bildirdi. Veteranlar Şurası tərəfindən şəxsi heyətin hərbi-vətənpərvərlik tərbiyəsi yönündə görülən işlərdən danışan M.Mürsəlov torpaqlarımızın bir qisminin işğal altında olduğu bir vaxtda mübarizlik ruhunun qorunub saxlanması, peşəkarlığın artırılmasının əhəmiyyətinə toxundu.

Qeyd olundu ki, Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin üçüncü dəfə vəzifəyə təyinatı bütün dərk edərək, fəaliyyətini bu istiqamətdə qurur.

Sonda general-mayor İ.Məmmədov təbir İştirakçılarını qarşıdan gələn 31 dekabr – Dünya azərbaycanlılarının həmrəyliyi günü və yeni il münasibətilə təbrik etdi.

Beləcə, veteranlar Ali Hərbi Məktəbdən nikbin ovqat və xoş təəssüratlarla ayrıldılar.

Yalçın Abbasov,
Daxili Qoşunların Veteranlar Şurasının katibi

BAYRAM TƏDBİRLƏRİNİN YÜKSƏK SƏVİYYƏDƏ KEÇİRİLMƏSİ MƏQSƏDİLƏ KONKRET TAPŞIRIQLAR VERİLİB

1993-cü ildən başlayaraq hər il dekabr ayının 31-i bütün Azərbaycan xalqı tərəfindən böyük təntənə ilə qeyd edilir. Bu təqvim dünya xalqlarının həyatında yeni ilin gəlişi ilə əlamətdar olsa da xalqımız üçün təkcə yeni ilin gəlişi ilə deyil, həm də Dünya azərbaycanlılarının həmrəyliyi günü ilə əlamətdardır.

Bütün həyatı boyu öz xalqının birliyi və işıqlı gələcəyi naminə çalışan Ümummilli Lider Heydər Əliyev tərəfindən Təmsili qoyulmuş bu bayram tək respublikamızda deyil, dünyanın hər bir tərəfində yaşayan azərbaycanlılar üçün ən dəyərli və əvəzolunmaz bayramlardan biridir. Dünya azərbaycanlıları bu möhtəşəm bayramı böyük coşqu ilə qeyd edir, milli həmrəylik, mənəvi dəyərlərimizə, tarixi irsimizə bağlılıq, mübarizlik, adət-ənənələrimizə sadiqlik kimi qiymətləndirir. Həmin gün sanki soydaşlarımız bütün dünyaya müqəddəs bayrağımızın altında birləşdiklərini, həmrəy, həmfikir olduqlarını bəyan edirlər.

Ənənəyə sadiq qalaraq, hər il olduğu kimi bu dəfə də bayram günləri Daxili Qoşunların hərbi hissələrində böyük təmtəraqla qeyd olunacaq. Artıq bununla bağlı müvafiq göstəriş hazırlanaraq Ali Hərbi Məktəbə və hərbi hissələrə göndərilib. Göstərişə əsasən, Ali Hərbi Məktəbdə və hərbi hissələrdə bayram günlərində şəxsi heyətdə ziyafətlərin görüşləri, bayram tədbirlərinə həsr olunmuş televiziya verilişlərinə baxış, mədəni yürüşlər, disputlar, mövzu axşamları, bilik yarışları (viktorinalar), stolüstü oyunlar, özfəaliyyət kollektivlərinin konsertləri keçiriləcək və hərbi qulluqçular üçün bayram naharları təşkil olunacaq.

Eyni zamanda dislokasiya yerlərində şəhid hərbi qulluqçuların ailələri ziyarət olunacaq, yerli icra orqanları tərəfindən keçirilən mərasimlərdə və bayram şənliklərində şəxsi heyətin iştirakı təmin ediləcək.

Şəxsi heyət üçün nəzərdə tutulmuş bayram tədbirlərinin yüksək səviyyədə həyata keçirilməsi məqsədilə Daxili Qoşunlar Komandanlığı tərəfindən hərbi hissə komandirlərinə konkret tapşırıqlar verilib.

Mətbuat xidməti

MÜSBƏT OVQAT VƏ YÜKSƏK ƏZMKARLIQ XİDMƏTDƏ UĞURLARIN RƏHNİDİR

Daxili Qoşunların şəxsi heyətinin mənəvi - psixoloji hazırlığı prosesində veteranların xüsusi rolu var. Uzun illər Daxili Qoşunların sıralarında hərbi xidmət keçmiş və ehtiyata buraxılmış veteranların təcrübəsi bu gün üçün də aktualdır. Veteranların bir qismi komandir və rəis heyəti vəzifələrində xidmət edərək peşəkarlıq zirvəsinə ucalmışlar. Onlar hərbi qulluqçu psixologiyasını, tabelik münasibətlərinin xüsusiyyətlərini, nümunəvi xidmətə təşviq edən amilləri dolğun bilirlər. Bununla yanaşı, Daxili Qoşunların formalaşmasında özü nəməxsus əməyi olan, müharibə sınaqları ilə üzləşmiş veteranların şəxsi heyətlə görüşləri hərbi kollektivlər üçün bir örnəkdir. Bu görüşlərin hərbi hissələrdə yüksək əhval-ruhiyyə və müsbət ovqat doğurduğu diqqətəlayiq bir gerçəklikdir.

Elə bir ay yoxdur ki, veteranlarımız hərbi hissələrdə olmasınlar. Veteranlar Şurasının iş planına uyğun olaraq, ayrı-ayrı hərbi hissələr üzrə təbriyə işi tədbirləri keçirilir. Bölgələrdə yerləşən hərbi hissələrimiz Veteranlar Şurasının xüsusi diqqət mərkəzindədir.

Son bir neçə həftə ərzində Daxili Qoşunların Veteranlar Şurasının sədri, ehtiyatda olan polkovnik-leytenant Murad Mürsəlov 17071, 17072, 17074, 16073, 12318, 25033, 16077 saylı hərbi hissələrdə olub, hərbi hissələrin həyatı, şəxsi heyətin xidmət və məişət şəraiti ilə yaxından maraqlanıb. Veteranlar Şurasının sədri hərbi hissələrdə şəxsi heyətlə keçirilən məşğələlərə, xidmətin aparılmasına hazırlıq prosesinin necə təşkil olunmasına, daxili xidmətin aparılması və günün nizam qaydalarına əməl edilməsi vəziyyətinə, klub və kitabxanaların fəaliyyətinə xüsusi diqqət yetirib və müvafiq tövsiyələrini verib. O, tibb məntəqələrində müalicə olunan hərbi qulluqçulara baş çəkib, onlara şəfa diləyib. Həmçinin, M.Mürsəlov hərbi hissələrin yeməkxanalarında əsgərlərlə birgə nahar edib, yeməklərin keyfiyyəti ilə bağlı onların fikirlərini öyrənib.

Hərbi hissələrdə şəxsi heyətlə keçirilən görüşlərdə çıxış edən M.Mürsəlov onlara Daxili Qoşunların veteranlarının salamını yetirib. Qeyd olunub ki, veteranlar Daxili Qoşunların hərbi ilə yaxından maraqlanır və xidməti-döyüş fəaliyyətində əldə edilən nailiyyətlərdən qürur duyurlar.

M.Mürsəlov xüsusi vurğulayıb ki, Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin bütün Silahlı Qüvvələrə, o cümlədən DİN-in Daxili Qoşunlarına diqqət və qayğısı nəticəsində şəxsi heyətin bütün növ təminatları müasir standartlara tam uyğundur. Bildirilib ki, son illər Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun tapşırıqlarına uyğun olaraq, Daxili Qoşunların komandanlığının rəhbəriyi altında hərbi hissələrdə əsaslı yenidənqurma işləri aparılıb, bir sıra yeni hərbi hissələr yaradılıb. Bununla yanaşı, hərbi hissələrin maddi-texniki təchizatı gücləndirilib. Bütün bunlar Daxili Qoşunların nəzərəçarpan inkişafının göstəricisidir və şəxsi heyətin peşəkarlığının yüksəldilməsinə yönəldilib.

O, Daxili Qoşunların şərəfli bir yol keçdiyini, ərazi bütövlüyümüz uğrunda yüzlərlə hərbi qulluqçumuzun şəhidlik zirvəsinə ucaldığını, ictimai təhlükəsizliyin təmin olunmasında da şəxsi heyətin fədakarlıq nümunələri göstərdiyini nəzərə çatdırdı. Qeyd edib ki, bu gün Daxili Qoşunların şərəfli ənənələri əsasında yeni bir qiymətləndirmə müəlifce olunan hərbi qulluqçulara baş çəkib, onlara şəfa diləyib. Həmçinin, M.Mürsəlov hərbi hissələrin yeməkxanalarında əsgərlərlə birgə nahar edib, yeməklərin keyfiyyəti ilə bağlı onların fikirlərini öyrənib.

Veteranlar Şurası sədri həmçin əsgərlərə hərbi xidmətdə bağlı tövsiyələrini çatdırıb, nizam-intizamın qorunub saxlanması, hərbi etik qaydalara riayət edilməsi, hərbi biliklərin əzmlə mənimsənilməsinin uğurlu nəticələrin bünövrəsi olduğunu vurğulayıb.

Daxili Qoşunların Veteranlar Şurası sədrinin hərbi hissələrin komandanlıqları ilə görüşlərinə şəxsi heyətin təlim-tərbiyəsi işinə dair, habelə Veteranlar Şurasının hərbi hissələrdə əməkdaşlığı barədə fikir mübadiləsi aparılıb.

M.Mürsəlov hərbi hissələrdə olarkən onların kitabxanalarına Daxili Qoşunların Veteranlar Şurasının fəaliyyətini əks etdirən "Daxili Qoşunların veteranları hərbi vətənpərvərlik tərbiyəsi prosesində" kitabını təqdim edib.

M.Mürsəlovun bölgələrə səfərləri zamanı yerlərdə Daxili Qoşunların veteranları ilə də görüşlər keçirilib. Bu görüşlərdə veteranların təşkilatlanması, hərbi hissələrdə vətənpərvərlik tərbiyəsi işinə cəlb olunması, sosial qayğıları ilə bağlı məsələlər ətraflı müzakirə olunub.

Yalçın Abbasov

NÜMUNƏVİ XİDMƏT

XİDMƏTİMLƏ FƏXR EDİRƏM

Hərbi qulluqçu öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır. O, Azərbaycan dövlətinin mənafeyini qorumağa, onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərməyə, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət etməyə, hərbi andı yerinə yetirməyə, intizamlı, vicdanlı və cəsarətli olmağa, hərbi borcunu yerinə yetirərkən, bütün qüvvəsini və lazım gəldikdə, canını əsirgəməməyə, komandirlərə (rəislərə) sözsüz tabe olmağa və döyüşdə onları müdafiə etməyə, öz hərbi hissəsinin Döyüş Bayrağını göz bəbəyi kimi qorumağa borcludur.

Daxili Qoşunların 12318 saylı hərbi hissəsinin komendant bölüyündə xidmət edən hər bir hərbi qulluqçu bu tələbləri dərindən dərk edir, xidmətə vəzifə borcunu hərbi nizamnamələrə uyğun həyata keçirir. Onlar öz vəzifələrini yaxşı bilir, verilmiş tapşırıqları vicdanla yerinə yetirir, hərbi biliklərini müntəzəm surətdə təkmilləşdirir, təhkim olunmuş silahın taktiki-texniki xüsusiyyətləri dərindən mənimsəyir.

Komendant bölüyünün əzmkarlığı, çevikliyi ilə seçilən, sadadıdığımız xüsusiyyətləri özündə cəmləşdirən hərbi qulluqçularından biri əsgər Musa Aslanlıdır.

O, 1995-ci il aprel ayının 28-də Ağcabədi rayonunun Gələbədin kəndində doğulub. 2012-ci ildə orta məktəbi bitirən Musa elə həmin ildə də Təfəkkür Universitetinin "Filologiya" fakültəsinə qəbul olur. Təhsilini uğurla başa vurduqdan sonra Daxili Qoşunların 12318 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə başlayır. Xidmətin çətinliklərinə mərdlikə sinə qərən əsgərimiz komendant bölüyündə qulluq etməyin çətin, eyni zamanda qürurverici olduğunu deyir. Nizam-intizamı, bacarığı, eyni zamanda şəxsi keyfiyyətləri ilə hərbçi yoldaşlarına nümunə olmağı bacarır. Bundan əlavə, o, xüsusi istedadı-gözəl şeirlər yazmaq bacarığı ilə də seçilir.

Nümunəvi hərbi qulluqçumuz hərbi xidmətin bütün çətinlik və məhrumiyyətlərinə mətinlikdə dözməyi bacarır, öz yoldaşlarına sözü və işi ilə kömək etməyə, onları ziyanlı vərdişlərdən çəkindirməyə çalışır.

Ieytenant N.Ağayeva

HƏRBİ QULLUQÇULARIMIZIN AZYAŞLI UŞAQLARI ÜÇÜN BAYRAM ŞƏNLİYİ KEÇİRİLİB

Dekabrın 28-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının "N" saylı hərbi hissəsinin ərazisində yerləşən uşaq bağçasında 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il bayramı münasibətilə tədbir keçirilib. Tədbirdə Daxili Qoşunların hərbi qulluqçularının ailə üzvləri iştirak ediblər.

Aparıcı Arzu Quliyeva uşaqları və bütün qonaqları bayram münasibətilə ürəkdən təbrik edərək, dekabrın 31-də kökə ilin öz yerini tərəə ilə verdiyini və bu günün bütün dünyada sevinclə qarşılandığını, bayram kimi qeyd olunduğunu söylədi. O, bu təqvimin eyni zamanda Azərbaycan xalqı üçün ikiqat bayram olduğunu da xüsusilə vurğuladı.

Sonra körpələri təbrik üçün söz polkovnik S.Cəfərova verildi. O, uşaqları Dünya Azərbaycanlılarının Həmrəyliyi günü münasibətilə ürəkdən təbrik edib, hər bir ocaqdan körpə səsinin gəlməsini arzuladı. Qeyd etdi ki, Ümummilli Lider-zəl şeirlər yazmaq bacarığı ilə də seçilir.

Nümunəvi hərbi qulluqçumuz hərbi xidmətin bütün çətinlik və məhrumiyyətlərinə mətinlikdə dözməyi bacarır, öz yoldaşlarına sözü və işi ilə kömək etməyə, onları ziyanlı vərdişlərdən çəkindirməyə çalışır.

Ieytenant N.Ağayeva

YENİ İL DÜNYA ÖLKƏLƏRİNDƏ...

Almanlar Yeni il gecəsi saat 12-ni vurarkən ovuclarında metal pul sıxaraq tullanırlar. İnanırlar ki, bunu etsələr, yeni il daha bərəkətli olacaq.

Bolqarıstanda yeni il axşamı uşaqlara alabəzək hədiyyələr və şirni bağışlamaq dəbdədir. Deyirlər ki, yeni il axşamı kim çox uşaq sevindirsə, tərə ildə onun o qədər fərəhli günləri olacaq.

Vyetnamda yeni il yanvarın axırında və ya fevralın əvvəlində qarşılanır. Bu zaman burada bahar havası olur. Yeni il şüfrəsinə toplaşan qonaqlar ellərində çiçək dəstələri tuturlar. Vyetnamlılar yeni il axşamı əziz adamlarına çiçək açmış ərik ağacının budaqlarından düzəldilmiş çələng bağışlayırlar.

İtaliyada il təhvil olanda küçələrdə adamlar çox ehtiyatlı davranmalıdırlar. Çünki italyanlar yeni il axşamı lazımsız, köhnə əşyaları, hətta mebelləri belə pəncərələrdən küçəyə tullayırlar.

Rumniyada yeni il şüfrəsi üçün içərisi sürprizlərlə dolu kökə bişirmək dəbdir. Yağlı kökənin içərisində daha çox pul, gümüş üzük, acı istiot qoyurlar. Yemək vaxtına kimin bəxtinə nə çıxdı, çıxdı. Bəxtinə çıxan adam il boyu ehtiyatla dolanmalıdır ki, acı günlər ondan uzaq olsun. Kökəsindən pul və üzük çıxanları isə xoşbəxtlik gözləyir.

Ekvador sakinlərinin Yeni il ənənələri olduqca maraqlıdır. Burada kimsə növbəti ildə daha çox səyahət etmək istəyirsə, gecə saat 12-də böyük çamadanla yaşadığı binanın ətrafında bir neçə dövrə qaçmalıdır.

İspanların ən əsas Yeni il ənənəsi on iki üzüm giləsi ilə bağlıdır. Bu ölkənin sakinləri yeni il gecəsi yaşadıqları şəhərin mərkəzinə çıxır, yeni ilə 12 saniyə qalmış niyyət tuturlar, hər saniyə ərzində bir gilə üzüm yeyib tumlarını atırlar. Əsas məsələ 12 saniyə ərzində bu prosesi vaxtında həyata keçirməkdir. Kim bunu bacarırsa, növbəti ildə onu uğurlar gözləyir.

İspanlar üçün üzüm uğur, bolluq, xoşbəxtlik rəmzi sayılır.

Şəhidlərimiz

OLDUQCA CƏSUR VƏ MƏRD DÖYÜŞÇÜ İDİ...

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda son damla qanınadək vuruşaraq canını qurban verən qəhrəman silahdaşlarımızın həyat və döyüş yolu bugünkü gənclərimiz üçün əsl örnəkdir.

"Vətən dardadır!!!" - deyərək onun müdafiəsinə qalxan, həyatını Vətən uğrunda qurban verən şəhid oğullarımızdan biri də Daxili Qoşunların hərbi qulluqçusu, sıravi Ayaz Musayevdir.

Ayaz Məcid oğlu Musayev 1972-ci il yanvar ayının 21-də Qax rayonunun Əmircan kəndində dünyaya göz açıb. Atası Məcid kişinin və Səməyə ananın halal zəhmətlə böyütdüb tərbiyə etdiyi 5 övladdan (Limon, Ülkər, Ayaz, Könül və Kamran) biri, eyni zamanda ailənin sevimlisi idi Ayaz. Natamam orta təhsilini doğma Əmircan kənd məktəbində almış, 1988-ci ildən isə Bakıdakı 5 saylı kimya-biologiya təmayüllü orta məktəbdə davam etdirmişdir. Ayazın ən böyük arzularından biri də gələcəkdə ali təhsilli kimyaçı olmaq idi...

Onun hələ Əmircan kənd məktəbində oxuyarkən intizamlı, nümunəvi və çalışqan şagird olmasını 1987-ci ildə bu təhsil ocağını bitirərkən aldığı "Natamam orta təhsil haqqında şəhadətnamə"dən də görmək olar. Şəhadətnamədə Ayazın keçdiyi 17 fənnin hər birindən "əla" qiymət alması və məktəbi nümunəvi şagird kimi bitirməsi qeyd olunub. Bundan əlavə, 1980 və 1984-cü illərdə 1-ci və 5-ci siniflərdə oxuyarkən Azərbaycan SSR Maarif Nazirliyi adından təhsildə müvəffəqiyyətinə və nümunəvi davranışına görə Ayazın təltif olunduğu, məktəbin direktoru və müəlllimləri tərəfindən imzalanmış "Tərifnamə"lərdə də yuxarıda qeyd olunan müsbət fikirlər öz əksini tapıb.

MUSAYEV AYAZ MƏCİD OĞLU

A.Musayev orta təhsilini başa vurduqdan sonra Qax Rayon Hərbi Komissarlığı tərəfindən Sovet Ordusuna hərbi xidmətə çağırılır. Ayaz o zamanlar Sovet Sosialist Respublikaları İttifaqının Almaniyada dislokasiya olunmuş hərbi hissələrinin birində iki il müddətli həqiqi hərbi xidmət keçir (***Ayazın Almaniyada hərbi xidmətdə olarkən çəkdirdiyi şəkillər, eləcə də öz əli ilə taxtadan yonaraq düzəltdiyi bardaq, cəsur döyüşçünü xatırladan qiymətli əşyalar olaraq bu gün də ailəsi tərəfindən qorunub saxlanılır - A.Ə.***).

Hərbi xidmətini başa vurub Vətənə qayıdarkən isə doğma yurd yerlərimizin erməni daşnaklarının təcavüzünə məruz qaldığını görüb, könüllü olaraq cəbhə bölgəsinə yollanır.

Bir müddət sonra o, Daxili Qoşunların Ağdamda yerləşən "N" saylı hərbi hissəsinin "sıravi" hərbi qulluqçusu kimi Vətənə olan müqəddəs borcunu şərəflə yerinə yetirməyə başlayır.

09 mart 1993-cü il. Ağdam rayonunun Manikli kəndi ətrafındakı Sığnaq yüksəkliyinin müdafəsi uğrunda gedən şiddətli döyüşlər Ayazın son döyüşü olur. Bu döyüşdə düşmən gülləsinə tuş gələn Ayaz, gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə yüksəlir.

Vətən uğrunda canını qurban verən Ayaz Musayev martın 12-də doğma Əmircan kənd qəbristanlığında dəfn olunur. Qax rayonu, Əmircan kənd natamam orta məktəbinə Daxili Qoşunları igid döyüşçüsü, şəhid A.Musayevin adı verilib.

Aradan xeyli müddət keçməsinə baxmayaraq, Ayazın döyüşçü dostları onun qəhrəmanlığını bu gün də böyük iftixar hissi ilə xatırlayırlar.

Onunla vaxtı ilə bir çox ağır döyüşlərdə çiyin-çiyinə vuruşan və o dövrdə "kapitan" hərbi rütbəsində hərbi hissə komandirinin 1-ci müavini - Qərargah rəisi kimi xidmət edən Etibar İlyasov (**hazırda 12318 saylı hərbi hissənin komandiri, polkovnik - A.Ə**) cəsur əsgəri haqqında xatirələrini bizimlə bölüşərkən bunları dedi:

"Ayazı çox yaxşı tanıyırdım. Vətənini sevən, əsl qəhrəman döyüşçü idi. Hissə komandirinin müavini - qərargah rəisi vəsifəsini icra etsəm də aparılan döyüş əməliyyatlarının hamısında şəxsən iştirak edirdim. Bu baxımdan, cəsur, mərd döyüşçülərin hər birini yaxşı tanıyırdım. Deyə bilərəm ki, Ayaz da bu cür cəsur əsgərlərimizdən biri idi. Qorxunun nə olduğunu bilməzdi. Bununla yanaşı, olduqca mehriban, deyib-gülən, xoş xasiyyəti vardı. Bu müsbət xarakterik xüsusiyyətlərinə görə də yoldaşları arasında böyük hörmət qazanmışdı.

Ayaz Ağdamın bir çox kəndlərinin və yüksəkliklərinin azad edilməsi uğrunda aparılan hərbi əməliyyatlarda fəal iştirak edib. Yaxşı yadımdadır, Baş Güneypəyə, Orta Güneypəyə, Xatınbəyli və Manikli kəndlərinin azad edilməsi, həmçinin müdafiəsi uğrunda gedən döyüşlərdə Ayaz onlarla erməni yaraqlısını məhv edərək, əsl qəhrəman hərbçi kimi fərqlənmişdi".

Məlumat üçün qeyd edək ki, şəhid A.Musayevin həyat və döyüş yolundan bəhs edən yazılara görkəmli ziyalımız - Hikmət Əzimovun 1996-cı ildə Bakıda nəşr olunan "Qax şəhidləri" kitabında, həmçinin Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmi internet saytında rast gəlmək olar.

Bundan əlavə, A.Musayevin adının Daxili Qoşunların Arxivində saxlanılan Daxili Qoşunlar üzrə **"1992-1994-cü illərdə gedən döyüş əməliyyatları nəticəsində şəhid olmuş hərbi qulluqçuların siyahısı"**nda 329-cu sıra nömrəsi ilə qeydə alınması və 67987 saylı hərbi hissənin sıravi döyüşçüsü kimi 09.03.1993-cü il tarixdə Sığnaq yüksəkliyi uğrunda gedən döyüşlər zamanı həlak olması göstərilib.

Ayaz kimi mərd, cəsur silahdaşlarımız Daxili Qoşunların tərkibində xidmətlərini bu gün də şərəf və ləyaqətlə davam etdirirlər. Sıralarında vətənpərvər oğulların xidmət etdiyi Azərbaycanın Silahlı Qüvvələri işğal altında qalan müqəddəs torpaqlarımızı yağı düşməndən azad etməyə hər zaman hazırdır.

Allah şəhidlərimizə rəhmət eləsin!

kapitan A.Əhmədov,
Mənəvi-psixoloji hazırlıq şöbəsində muzey rəhbəri

NAPOLEON BONAPART HAQQINDA...

Bir dəfə fransız diplomat Taleyrana xəbər verirlər ki, Napoleonun oğlu artıq özü yeriyə bilir, hətta hərdənbir qaçmağı da bacarır. Bu hadisə Napoleon ordusunun Rusiyada məğlubiyyətə uğraylı geri çəkildiyi 1812-ci ilin axırında baş vermişdir. Taleyran bu xəbəri eşidib deyir:

- Çox qəribə hadisədir ki, ata ilə oğul eyni zamanda qaçmağı öyrənirlər.

*****

Fransanın görkəmli yazıçısı Anna Luiza Stal bir gün Napoleona rast gəldikdə ona müraciət edir:

- İmperator həzrətləri, portretinizi mənə yadigar olaraq verməyinizi xahiş edirəm.

Napoleon üzərində öz şəkli olan pulu cibindən çıxarıb ona verir və deyir:

- Buyurun, bu da mənim portretim!

*****

Boyda kiçik olan (164 sm) Napoleon dəmir iradə sahibi kimi hamını özünə tabe edə bilirdi. Öz qüvvəsinə inam o qədər güclü idi ki, nəyi isə bacarmayacağı, nəyin isə öhdəsindən gələ bilməyəcəyi fikri onun üçün ağlasığmaz idi.

*****

Deyirlər ki, bir dəfə Napoleon atını mahmızlayıb yerə düşən bombaya tərəf çapırmış, yanmaqda olan bomba partlayaraq atla birlikdə onu havaya qaldırır. Bonapart sıçrayaraq tez başqa ata oturub oradan uzaqlaşır. O, hətta cüzam və taun xəstəliyinə tutulanların yanına qorxmadan girərmiş.

*****

1798-ci ildə Napoleon növbəti dəfə verdiyi qonaqlıqlardan birində məclisə yığılanlara həvəslə öz İtaliya yürüşü barədə danışır. Məclis çoxdan başa çatıb və qonaqların bir çoxu artıq getmək istəyir. Lakin Napoleon söhbətə o qədər aludə olur ki, onu başa çatdırmağı hələ ağlına belə gətirmir və elə hey danışır. Bu vaxt Jozefina bir neçə dəfə ona işarə edir və yaxınlaşıb qulağına söhbəti bitirmək barədə nə isə deyir.

Lakin Napoleon hələ də danışmağında davam edir. Nəhayət, Jozefina ona yaxınlaşır, zarafatla çiynindən vurararq qulaq asmaqdan yorulduğunu deyir. Napoleon isə zarafatla deyir:

- Görürsünüz, arvadım məni döyür.

Qonaqlardan biri Kollei d'Arlevil bunu cavab olaraq:

- Hamıya məlumdur ki, bu imtiyaza yalnız o, məlikdir, cənab imperator.

*****

Yaxınlığında gedən qanlı vuruşmaların qızğın çağında, düşmən fransız qoşunlarını şiddətli atəşə tutduğu zaman Napoleon qoşuna komandanlığı marşal Bertyeyə tapşıraraq özü yerə sərilmiş, xəz paltonun üstünə uzanaraq dərhal yuxuya getmişdir. Eyni hadisə Vaterlouda bir daha təkrar olunur. Səhər vuruşdan əvvəl onu yuxu aparır və döyüşün başlanmasına iki saat gecikir. Bütün bunlara səbəb səəb gərginliyinin özünü göstərməsi və «stressə davamlı» Bonapartın bunu davam gətirə bilməməsi olmuşdur.

*****

Əsirlikdən qaçdıqdan sonra yenicə özünə qoşun topladığı vaxtlarda Napoleon bir dəstə gizli bir marşrutla gecə bir neçə keçmiş silahdaşları ilə qayıqla gedirdi. Gecənin bir yarısında qayığın kənarında durub, dənizə baxa-baxa qayıqda onu müşayiət edən Sent-Andre və qraf Benyoya deyir:

- Görürsünüzmü, necə heyrətamiz bir fürsət! Bütün dünyanın taleyi indi cəmi bir güdlü zərbədən asılıdır.

Nəzərdə təbii ki, özünün itələnib dənizə atılmasını tutur. Qraf Benyo bu sözlərdən bərk həyəcanlanır və titrəyə-titrəyə deyir:

- Nə danışırsınız! Belə deməyin siz allah! Sent-Andre isə çox sakitliklə deyir:

- Narahat olmayın imperator, dünyada qətiyyətli insanlar çox nadirdir.

Səfər uğurla başa çatdı, qayıdan başı yolda Sent-Andre bayaqkı vəziyyəti yadına salıb Qraf Benyoya deyir:

- Bilirsən, inanın ki, bir vaxt gələcək, biz onun bugünki səfərinin onun üçün uğurla başa çatmasına görə qanlı göz yaşları ilə ağlayacağıq.

Yeqin ki, Napoleonun həyatında bu cür hallar çox olub ki, insanlar belə fürsətləri əldən vercikləri üçün heyfsilənsinlər.

*****

Napoleon heç vaxt generalların «bəlkə», «deyəsən» və s. tipli qeyri-müəyyən sözlərə danışmasına sevməzdi. Generallar da onun bu xasiyyətini çox yaxşı bilərdilər. Bir dəfə döyüşdən birinə hazırlıq ərəfəsində bir generaldan soruşur:

- Polkunuzda nə qədər əsgər var ?

General dərhal cavab verir:

- 1225, hökmdar!

- Bəs bunların neçəsi yaralı, xəstədir ?

- 1310!

Cavabın belə səlis və süratli verilməsi Napoleonu sakitləşdirir və ağlına da gəlmir ki, cavabları tutuş - dursun.

*****

Fransa İmperatoru və böyük sərkərdə I Napoleon (1769-1821) müqəddəs Yelena adasında sürgündə olduğu zaman ingilislərin onun ətrafında güclü keşikçi dəstəsi qoyduqlarını görüb demişdi:

- Mənim burada qaçacağımdan qorxmamaq üçün yeganə vasitə məni məhv etməkdir. Çünki ancaq ölülər qayıtmazlar.

*****

Tarixi məlumatlara görə, Napoleon Bonapart 1821-ci il mayın 5-də Müqəddəs Yelena adasında vəfat etmişdir, hem də o, arsenlə zəhərlənmişdi. Lakin ölən adamın Napoleon olması bir qədər şübhəli qalmışdır. Belə ki, güman edildiyinə görə, ölən Napoleona oxşayan Revar adlı bir şəxs olmuşdur. Napoleon etibarlı dostlarının köməyi ilə qaçırılmış, yerinə Revar salınmışdır. Napoleon isə Avstriyada arvadının tərəfindən ələ qeydiyyatsız bir qəbirdə basdırılmışdır.

(Materiallar İlyas Həsənov və Ellada Həziyevanın "Əslində onlar kimdi?" kitabından götürülmüşdür).

HƏRBİ XƏBƏRLƏR

Müdafiə Sənayesi Nazirliyi yeni avtomatik qumbaraatanların seriyalı istehsalına başlayacaq

Müdafiə Sənayesi Nazirliyinin (MSN) "Aqreqat" İstehsalat Birliyində 30 mm avtomatik qumbaraatan kompleksinin seriyalı istehsalı həyata keçiriləcək.

Hazırda qeyd olunan məhsulun istehsalının mənimsənilməsi prosesi gedir. Müvafiq avadanlıqlar alınıb.

"Aqreqat" İstehsalat Birliyinin müəssisələrində "RPQ-7V2" əl qumbaraatanlarının da istehsalının başlanacağı nəzərdə tutulub.

Qeyd edək ki, hal-hazırda MSN-in "Cihaz" İstehsalat Birliyinin müəssisəsində "RPQ-7" əl qumbaraatanlarının istehsalı və ixracı həyata keçirilir. Xarici sifarişin çox olması səbəbindən bəzi məhsulların bir neçə müəssisədə istehsal edilməsinə qərar verilib.

"Korsar" TƏİR-dən yeni raketlərə atış testi keçirilib

Ukraynanın "Luç" Konstruktor Bürosu "Korsar" portativ tank əleyhinə idarə olunan raket kompleksinin yüksək partlayıcı döyüş başlığı ilə təchiz edilmiş yeni raketin atış testini keçirib. Testlər zamanı 50 mm qalınlığında zirehləri lövhələri "RK-3OF" raketi vasitəsi ilə deşilib.

"Korsar" düşmənin zirehli texnikasının